*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 432-438*

https://doi.org/10.62837/2024.11.432

**RZAYEVA NƏRMİN KƏRƏM QIZI**
**AMEA-nın Nizami Gəncəvi adına**
**Ədəbiyyat İnstitutunun doktorantı**
**(Rzayeva.nk@gmail.com)**

# AZADƏ RÜSTƏMOVA – GÖRKƏMLİ NİZAMİŞÜNAS ALİM

**Xülasə**

Məlum olduğu kimi Azadə Rüstəmovanın Nizami Gəncəvi yaradıcılığı ilə bağlı tədqiqatları Azərbaycan nizamişünaslığında yeni bir səhifə açmışdır. Nizami Gəncəvi XII əsrdə yaşamasına baxmayaraq onun "Xəmsə"si, eyni zamanda yaradıcılığı ilə bağlı aparılmış onlarla tədqiqat əsərləri günümüzə qədər öz aktuallığını qoruyub saxlamaqdadır. Tədqiqat işinin məqsədi Nizami yaradıcılığına yeni baxışın araşdırılmasından ibarətdir. Nizami irsi daim dünya tədqiqatçılarının diqqət mərkəzində olsa da, azərbaycanlı alimin onun irsinə fərqli yanaşmasını elmi yenilik saymaq olar. Belə ki, A.Rüstəmova Nizami yaradıcılığına birtərəfli müstəvidən baxmamış, araşdırmalarını dövrün ədəbiyyatı ilə müqayisəli şəkildə araşdırmışdır. Bu da onun tədqiqatlarının dəyərini və əhəmiyyətini daha da artırmışdır. Azadə Rüstəmova öz yazılarında Nizami irsinin öyrənilməsi ilə bağlı həm müsbət, həm də mənfi cəhətləri diqqətə çatdırmışdır ki, bu da sonrakı tədqiqatlarda nöqsanların aradan qaldırılması üçün dəyərli addım sayıla bilər. Bu araşdırmada alimin Nizami yaradıcılığı ilə bağlı üzə çıxardığı bir çox problemlərə yer ayrılmışdır. İnanırıq bir sıra mühüm problemlərin aradan qaldırılması nizamişünaslığa Azərbaycan elminin verdiyi ən böyük töhfə olacaqdır.

**Açar sözlər**: Nizami Gəncəvi, Xəmsə, Azadə Rüstəmova, tədqiqat

## Низами Гянджеви в исследованиях Азады Рустамовой

**Нармин Рзаева**

**Резюме**

Как известно, исследования Азады Рустамовой, связанные с творчеством Низами Гянджеви, открыли новую страницу В азербайджанском низамиведении. Несмотря на то, что Низами Гянджеви жил в XII веке, его «Хамса», а также десятки исследовательских работ, связанных с его творчеством, остаются актуальными и по сей день. Цель работы заключается в исследовании нового взгляда на творчество Низами. Хотя наследие Низами постоянно находится в центре внимания исследователей всего мира, оригинальный подход азербайджанского ученого к его наследию можно охарактеризовать как подход, отличающийся научной новизной. Таким образом, А. Рустамова рассматривала творчество Низами не однобоко, а

сопоставляла свои исследования с литературой соответствующего периода. Это повышает ценность и значимость ее исследований. В своих трудах Азада Рустамова указывала как на положительные, так и на отрицательные стороны изучения наследия Низами, что можно считать ценным шагом по устранению недостатков в дальнейших исследованиях. В настоящем исследовании место было отведено множеству проблем, которые ученый выявил в связи с творчеством Низами. Мы считаем, что решение ряда важнейших проблем явится самым большим вкладом азербайджанской науки в низамиведение.
**Ключевые слова:** Низами Гянджеви, Хамса, Азада Рустамова, исследование.

## Nizami Ganjavi in Studies by Azada Rustamova

**Narmin Rzayeva**

**Summary**

As known, research works by Azada Rustamova on Nizami Ganjavi have opened a new page in Azerbaijani Nizami studies. Having lived in the 12th century, Nizami nevertheless still manages, on one hand, to draw attention to his "Khamsa" and on the other hand, studies conducted on his literary activities have preserved their high importance and actuality up until today. The purpose of this research is the study of a new approach to Nizami's activity. Nizami's heritage has always been central to world researchers and still the Azerbaijani scholars approach to his heritage can be considered as a scientific innovation. A.Rustamova left unilateral approaches to Nizami's activity, conducting her studies in a comparison with contemporary literature, which increased the importance and value of her studies. Azada Rustamova tried to draw attention to both deficiencies and positive sides of Nizami's heritage research works and it can be assessed as a valuable step for antializing. Numerous issues detected by the researcher in regard to Nizami's activities have been presented in the study. Solution of several important problems would be the greatest contribution Azerbaijani science could present to Nizami studies.
**Keywords:** Nizami Ganjavi, Khamsa, Azada Rustamova, Research

## Giris

Böyük Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığı və əsərlərinin təsir dairəsi məsələləri ilə dünyanın görkəmli alimləri məşğul olmuş, nəticədə dünya Nizamişünaslıq elmi formalaşıb, inkişaf etmişdir. Ancaq əminliklə deyə bilərik ki, Nizami irsinin araşdırılıb öyrənilməsi, əsərlərinin tərcüməsi və nəşri baxımından Azərbaycanla müqayisə edilə biləcək ikinci bir ölkə göstərmək mümkün deyil. Hər bir alim öz tədqiqatlari ilə Nizamişünaslıq elminə öz töhvələrini vermişdir. Müxtəlif tarixi dövrlərdə yaşayan görkəmli Azərbaycan alimləri H.Araslı, M.C.Cəfərov, Mir Cəlal, Rüstəm Əliyev, Mirzağa Quluzadə, Qulamhüseyin Beqdeli, Azadə

Rüstəmova, Əliyar Səfərli, Xəlil Yusifov, Teymur Kərimli, Nüşabə Araslı, Çingiz Sasani, Zümrüd Quluzadə və başqaları Azərbaycan Nizamişünaslıq elminin təməl əsərlərini yaratmışlar Azərbaycan Nizamişünaslıq elmində xüsusi xidmətləri olan görkəmli elm xadimlərindən biri də Azadə xanım Rüstəmova idi. Azadə xanımın Nizami Gəncəvi yaradıcılığı ilə bağlı araşdırmalarından bəhs etmədən əvvəl Alimin həyat yoluna qısa nəzər salmağı lazım bilirik. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, filologiya elmləri doktoru, professor Azadə Rüstəmova 1932-ci ildə Bakıda ziyalı ailəsində anadan olmuşdur. Orta məktəbi qızıl medalla, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsinin fars dili şöbəsini fərqlənmə diplomu ilə bitirmişdir. Azadə xanım görkəmli ədəbiyyatşünas alim Y.E.Bertelsin son aspirantlarından biri olmuş və onun rəhbərliyi ilə Moskvada, SSRİ Elmlər Akademiyası Şərqşunaslıq İnstitunun Dissertiya Şurasında Füzulinin "Leyli və Məcnun" poeması mövzusunda namizədlik dissertiyasını böyük uğurla müdafiə etmiş, 24 yaşında gənc alim kimi vətənə geri dönmüş və fəaliyyətinə Azərbaycan Milli Elmlər Akademiyasında davam etmişdir. (1, səh 16)

Zəngin klassik Azərbaycan poeziyası onu elmin dərinliklərinə çəkib aparmış, elmi tədqiqatlara həvəsini artırmışdır. O, 1971-ci ildə "Azərbaycan epik şerinin inkişafı yolları (XII-XVII əsrlər)" adlı doktorluq dissertiyasını uğurla müdafiə etmiş və əsər bu gündə Azərbaycan ədəbiyyatşünaslğında fundamental tədqiqat işi kimi xüsusi dəyərə malikdir. A.Rüstəmova dahi Nizami Gəncəvinin həyatını, böyük sərvətini yüksək elmi nəzəri səviyyədə tədqiq etmiş və filologiya elmləri doktoru adına layiq görülmüş ilk azərbaycanlı qadın alimdir. Azadə xanım 1978-ci ildən AMEA-nın Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinə rəhbərlik etmişdir. Onun 1981-ci ildə "Nizami Gəncəvi" adlı kitabı Azərbaycan, rus, ingilis dillərində nəşr edilmişdir. Dediyimiz kimi A.Rüstəmovanın Nizami Gəncəvi ilə bağlı tədqiqatları Azərbaycan nizamişünaslığında yeni bir səhifə açmışdır Nizami Gəncəvi XII əsrdə yaşamasına baxmayaraq onun "Xəmsə"si, eyni zamanda yaradıcılığı ilə bağlı aparılmış onlarla tədqiqat əsərləri günümüzə qədər öz aktuallığını qoruyub saxlamaqdadır. Məqalədə Nizami irsinə yeni baxışın Azadə Rüstəmova araşdırmalarının elmi yenilikləri barədə məlumat verəcəyik.

Azadə Rüstəmovanın Nizami irsinin öyrənilməsi ilə bağlı tədqiqatlarını belə sistemləşdirmək olar:

1. Nizami və ona qədər mövcud olan ədəbi irs. Bura həm Nizaminin sələflərinin yaradıcılığı, həm də Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan əsərlərin mənbələrinin tədqiqi daxildir. Ümumiyyətlə Nizami Gəncəvi yaradıcılığı Azərbaycan epik şerinin inkişafında mühüm rol oynamışdır. Nizami Gəncəvi yaradıcılığının hər tərəfli tədqiqi, onun təsirləndiyi mənbələrin üzə çıxarılması məsələsi A.Rüstəmovanın bir çox əsərlərinin əsas mövzusu olmuşdur. Biz Azadə Rüstəmovanın "Azərbaycan epik şerinin inkişafı yolları (XII-XVII əsrlər)" adlı

monoqrafiyasına diqqət yetirsək burada Nizami Gəncəvi yaradıcılığı işığında epik şerimizin mənbələri, öz başlanğıcını hansı məxəzlərdən götürdüyü barədə geniş mülahizələrə rast gələ bilərik. Bunlardan bəzilərinə nəzər yetirsək A.Rüstəmova epik şerin o cümlədən də Nizami Gəncəvi yaradıcılığının şifahi xalq ədəbiyyatından bəhrələndiyini, obraz və xarakterlərin oxşarlıqları baxımından əsaslandırır. Xüsusilə Nizaminin "Kitabi Dədə Qorqud" dan ruhən qida aldığını vurğulamışdır. Xüsusilə Nizaminin yaratdığı qadın obrazlarının "Kitabı Dədə Qorqud"dakı qadınlar ilə xarakter baxımından oxşarlığı A. Rüstəmovanın diqqətindən yayınmamışdır. O yazır: "Mətnarxası, sətirarası duyursan ki, şair əcdadının qədim Azərbaycanlıların, kiçik Midiyanın mütləq etnik tərkibinə daxil əski türk uluslarının qadına -qadınlığa şərəfli baxışına dərin rəğbət bəsləmişdir ( 2 səh 129).

İslamdan əvvəlki və İslamın qəbulunun ilkin dövrlərinin ədəbi abidəsi olan "Kitabi Dədə Qorqud"da qadınlar həyatın hər bir sahəsində fəal olmuş, öz igidlikləri, kamil xarakterləri ilə Nizaminin diqqətini cəlb etmiş, dahi şair öz qadın obrazlarını yaradarkən bu zəngin mənbədən istifadə etmişdir. Şirin, Məhinbanu, Fitnə, Nüşabə obrazları ədəbiyyatımızda bədii cəhətdən bir novatorluq, ictimai cəhətdən çox mütərəqqi bir hadisədir.

2. Nizami və müasirləri. Burada Nizami və Sənayi Qəznəvi yaradıcılığı müqayisəli şəkildə təqdim olunur.

Ümumiyyətlə A.Rüstəmova öz tədqiqat işlərində müqayisəli metoddan geniş şəkildə istifadə etmişdir. O, öz yeni fikirlərini ifadə etmək, həmdə faktik ədəbi materialların müqayisəli şəkildə təqdimi ilə oxşar və fərqli cəhədləri üzə çıxarmaq baxımından əlverişli bir metod kimi müqayisəli təhlil metodunu seçmişdir. A.Rüstəmova bundan əvvəl Firdovsi "Şahnamə"si ilə Nizami "Xəmsə"sini müqayisə etmiş və bunun nəticəsində Nizami yaradıcılığında olan yenilikləri üzə çıxarmışdır. Məsələn "Nizamiyə qədərki epik şerdə bir çox zaman xarakterin ikiləşdiyinin şahidi oluruq. Firdovsi "Şahnamə"sində psixoloji, məntiqi təzadlar çoxdur. Ancaq Nizami Şirini hansı şəraitdə, necə mənəvi böhranlar içərisində olursa olsun o, öz xarakterik xüsusiyyətləri ilə uzlaşır. (2 səh 105) Həqiqətən də Nizami obrazlarındakı psixoloji ahəngdarlıq onun hər bir əsərində müşahidə olunur. Başqa bir fikrə nəzər yetirək: "Firdovsinin Şahnamə"sində qəhrəmanların ruhi psixoloji keyfiyyətləri ön planda deyil, əsasən onların davranış və fəaliyyəti tərənnüm edilir. Ancaq Nizami epik şerində şairi daha çox insan, ictimai psixoloji bir varlıq kimi onun mənəviyyatı, həyatda mövqeyi problemi maraqlandırır. (2 səh 65) Əlbəttə bu müqayisələr "Şahnamə" əsərinin dəyərini azaltmır. Müəllifin də dediyi kimi Firdovsi "Şahnamə"si klassik dövrün milli qəhrəmanlıq eposundan roman epopeyaya keçid mərhələni təşkil edirdi. Firdovsi yaradıcılığı bütün əzəməti və qüdrəti ilə qəhrəmanlıq dövrünü təntənəli akkordlarla yekunlaşdırdı. (2səh 63).

Əlbəttə Azadə Rüstəmova tarixi, ədəbi irsin tədqiqinin nəzəri və əməli əhəmiyyətini başa düşürdü. O istənilən mövzu haqqında fikir yürüdərkən hər zaman

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 432-438*

əsas mənbələri nəzərdə saxlamış və elmi fərziyyələrini faktlarla çıxış edərək əsaslandırmışdır. Axı, bəşəriyyətin əldə etdiyi bilik sərvətinə yiyələnmədən alim, sözün əsil mənasında alim deyildir. (5 səh 11) Azadə Rüstəmova geniş erudisiyaya malik görkəmli alim idi. O apardığı elmi təhlillər, mükəmməl ümumiləşdirmələri ilə ədəbiyyatşünaslıq elminə öz töhvələrini vermişdir. Nizami və Sənayi Qəznəvi yaradıcılığı Şərq poeziyasının müxtəlif istiqamətlərini təmsil edir: Nizami epik sənətkarlıqda mükəmməllik nümayiş etdirərkən Sənayi fəlsəfi -didaktik şerləri ilə sufi dünyagörüşünü poeziyaya gətirmişdir. Onların hər ikisi mənəvi irsin inkişafında böyük rol oynamış və şərq ədəbiyyatına əvəzsiz töhvələr vermişdir. A.Rüstəmovanın bu müqayisəsinə səbəb Dünya şərqşünaslığında Nizaminin "Sirlər Xəzinə"sinin bilavasitə "Həqiqətül-həqaiq"in təsiri ilə yazılmış bir əsər olduğunun qeyd edilməsidir. Həmçinin bu müqayisə ilə A.Rüstəmova Nizami yaradıcılığının fəlsəfi baxımdan da düzgün şərhinə, onun orijinal üslubunun qabarıq nəzərə çatdırılmasına nail olmuşdur. Müqayisə ilə bağlı A.Rüstəmovanın fikirlərinə nəzər yetirək: "Beləliklə, Sənayinin "Hədiqə"si ilə Nizaminin "Sirlər Xəzinəsi" arasında istər məna - məzmun, istərsə də forma-quruluş baxımından həm uyarlılıq, həm də fərqlər vardır, ancaq fərqlər daha tutumludur və hər iki şairin həyata mütəfəkkiranə baxışı və poetik – sənət qavramı ilə bağlıdır. Uyarlılıq mövzunun özündən gəlir. Hər ikisi irfani - əxlaqi – mənəvi məsnəvi – poema yaradıcısı idilər. İrfani fəlsəfi əxlaqi poeziyanın islamı ədəbiyyatda kökləri isə Quran və sufi vəz – moizə məclislərinə gedib çıxırdı. Sənai ilkin bu qaynaqlara bağlanaraq poemasını qələmə aldı. Nizami isə ardınca getdi. Bu qaynaqlar və üstəgəl Sənai poeması "Sirlər Xəzinəsi"nin meydana gəlməsində münbit zəmin rolu oynadı. Lakin Sənai həm də görkəmli sufi ideoloqu idi və əsərində də sufi təlimləri ilə islami çulğanış daha əhatəli, daha vüsətlidir. Daha doğrusu, Sənai öz islami görüşlərini təsəvvüfi baxışları ilə sintezləşdirib oxucuya təqdim edir. Nizami Quran və İslami təlimləri əsas tutur, sufi fəlsəfəsindən daha çox simvol-məcaz kimi istifadə edir. Lakin Nizami orijinallığı və təkrarsızlığı ondandır ki, o, Quran və başqa islami dayaqlardan barındıqlarını öz Renessans dünya duyumu prizmasından keçirərək şerinin mayasına qatıb, oradakı demokratizm və xəlqilik prinsiplərinə daha artıq kəsər verir. (3.səh 345).

Azadə Rüstəmovanın fikirlərinə şərik çıxıb deyə birlik ki, Nizami heç bir əsəri mövcud olduğu şəkildə nəzmə çəkməmiş özünə məxsus ustalıqla qədim tarixi və əbədi obrazlara yeni nəfəslər bəxş etmişdir. 3. Nizami məktəbinin davamçıları. Bura Əssar Təbrizi, Kövsəri və Məhəmməd Füzulinin adlarını daxil etmək olar ki, alim hər üç müəllifin yaradıcılığını geniş şəkildə araşdırmışdır. XIV əsr Azərbaycan epik şerinin dəyərli nümunələrindən biri olan Əssar Təbrizinin "Mehrə Müştəri" əsəri A.Rüstəmovanın tədqiqatında geniş şəkildə şərh edilmişdir. A.Rüstəmova əsəri əsasən obraz və xarakterlər baxımından təhlil edir Nizami ədəbi məktəbinin nümayəndələrindən olan Əssar yaradıcılığında da xalq yaradıcılığı mötivləri özünü göstərir. Nizami yaradıcılığındakı obrazların kamil və bütöv xarekterik xüsusiyyətləri

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 11, 2024
Səh. 432-438

Əssar Təbrizinin " Mehr və Müştəri" əsərində də görülür. Mehr, Müştəri, Nahid, Bədr, Keyvan şah kimi müsbət obrazlar ədəbiyyat tariximizdə yadda qalan sürətlərdir. Müəllifin də qeyd etdiyi kimi: Obraz və xarakter yaratmaqda Əssar sözün həqiqi mənasında Nizami romantik əbədi məktəbinin ən layiqli şagirdidir. Əssarın mahir rəssam fırçasına bənzəyən qələmi yalnız işıqlı, açıq rənglərlə işlənmiş ideal qəhrəmanların obrazını deyil, şər zülmət qüvvələrin də canlı portretini çəkib yaratmağa qadirdir. Şairin Bəhram obrazı bu mənada Nizami Rast Rövşənindən sonra yaradılan "gözəl, eybəcər" surətlərin ən parlaq nümunələrindən biridir.

XVII əsrdə fars dilində yazmış istedadlı Azərbaycan şairlərindən biri Kövsəri olmuşdur. Əsərin özündən əldə olunan məlumatlardan aydın olur ki, Kövsəri "Fərhad və Şirin" əsərini I Şah Abbasın xahişi ilə nəzmə çəkib. "Fərhad və Şirin" əsəri öz orijinal quruluşu, bədii gözəlliyi ilə dolğun sənət nümunəsidir. Əlbəttə Azadə Rüstəmovanın da qeyd etdiyi kimi bu əsərdə Nizami "Xosrov və Şirini" ilə uyar və uymaz məqamlar çoxdur. Məsələn Şirin obrazı Kövsəridə öz xarakterinin mürəkkəbliyi ilə seçilir. O, Şəkəri sevmədiyi Xosrova qısqanır, Fərhadın ölümünün intiqamını Xosrovdan dayə vasitəsilə Şəkərə zəhər verib məhv etmək yolu ilə alır.

Bütün bunlar Şirini ideal obraz səviyyəsinə qaldırmasa da ona real cizgilər verir, həyati bir obraz kimi dolğun çıxmasına kömək edir. A.Rüstəmova Kövsəri Fərhadı ilə Nizami Gəncəvinin Fərhadını müqayisə edir. Düzdür onlar hər iki əsərdə tamam başqa mövqedə təqdim edilməsinə baxmayaraq, sadiq aşiq obrazı kimi ideal qəhrəman səviyyəsində dayanırlar. Xosrov obrazına gəldikdə isə Nizami Gəncəvi yaradıcılığında eşqin tərbiyəvi gücü ilə, kamilləşən Xosrov ilə, Kövsəri "Xosrovu" qütb obrazlar kimi bir birinə ziddir. Kövsəri Xosrovu yalnız əxlaq düşkünü bir insan kimi yox, həm də bir hökmdar kimi zəif və xaraktersizdir. Azadə Rüstəmovanın Füzuli yaradıcılığı ilə bağlı fikirləri daha geniş və əhatəlidir. Onun "Mütəfəkkir Mövlana Füzuli" "Məhəmməd Füzuli" əsərlərində Füzuli həyat və yaradıcılığı barədə geniş məlumat vermişdir. Biz isə A.Rüstəmovanın Nizami və Füzuli yaradıcılığı barədə apardığı müqayisələrə diqqət edək. A.Rüstəmova yazır: Klassik Azərbaycan epik poeziyası bir sıra tarixi ictimai siyasi səbəblər baxımından iki dildə inkişaf etdiyi kimi, onun zirvələri də iki şaxəlidir Farsdilli epik şerimiz öz zirvəsinə Nizami yaradıcılığında yüksəldi. Azərbaycandilli şerimiz isə təntənəsini Füzuli sənətində tapdı. (2,səh 366) Füzuli epik şerinin şah əsəri ölməz məhəbbət dastanı "Leyli və Məcnun"dur. Müəllif yazır: Füzuli də ölməz sələfi Nizami kimi məhəbbətin ictimai əsasını alır, ona fəlsəfi – hümanist məzmun verir.... Leyli və Məcnun psixoloji romandır Füzulini sözün əsil mənasında insan qəlbimin psixoloqu adlandırmaq olar". A.Rüstəmova Füzuli "Leyli Məcnun"un Nizaminin eyni adlı əsəri ilə fərqli cəhətlərindən danışarkən diqqəti Füzuli sənətinin əsas xüsusiyyəti olan lirizmə yönəltdir. O deyir: Füzuli " Leyli və Məcnun"u öz bariz lirik tonu ilə diqqəti cəlb edir. Odur ki, subyektiv hisslər burada daha tutumlu, əhatəlidir. Nizamidəki lirik parçalar öz forması etibarı ilə hələ qəzəl deyildi, ümumi əsərin öz vəzninə tabe,

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 432-438*

məsnəvi şəklində - qoşa qafiyədə qələmə alınmışdı. Ancaq "Leyli və Məcnun" əsərində Füzuli yeri gəldikcə, hadisədən ayrılmadan, hər bir epizodla əlaqədar olaraq qəzəllər nəzmə çəkmişdir. Həmçinin, Nizami yaradıcılığına xas olan və "Leyli və Məcnun"da öz əksini tapmış hekayə içərisində hekayə söyləmək üsulu Füzulidə işlənmir. A.Rüstəmova süjet müxtəliflikləri baxımından da hər iki əsəri müqayisə edir. Məsələn, Füzuli "Leyli və Məcnun"unda Məcnunun Leyli qəbiləsinə getməsi və sevgilisi ilə görüşməsi səhnəsi, Nizamidə başqa planda təsvir olunur. Burada Məcnun Leyli ilə görüşmür, tüklər ürpədən bir fəğanla zəncirini qırıb yenə də geri, çöllərə qaçır. Həmçinin Nofəl Nizami əsərində təsadüfən ov zamanı Məcnunla rastlaşır, onu tanıdıqdan sonra kömək etmək qərarına gəlir. Füzulidə isə Nofəl Məcnunun qəlbləri valeh edən lirik qəzəllərini eşidib, onunla tanış olmağı arzulayır. Və yaxud da Füzulinin Məcnunu ümumiyyətlə bir şair kimi təsvir olunur. Ancaq, Nizamidə Məcnun ancaq Kəbə əhvalatından sonra şair olub, lirik şerlər yazmağa başlayır. Bu müqayisələrin sayı Azadə Rüstəmova monoqrafiyasında çox genişdir. Ancaq biz bu yazıda hər birini ifadə edə bilmirik. Sonda isə Azadə Rüstəmovanın hər iki qüdrətli sənətkar barədə fikirlərini diqqətə çatdırmaq istəyirik: Füzuli sənəti dahi Nizami şeri kimi elə sönməz bir işıq mənbəyidir ki, həmişə şölələnəcək, həmişə yanacaq, öz mülayim hərarəti ilə bütün əsrlər boyu oxucularının qəlbini qızdıracaqdır.

Göründüyü kimi A.Rüstəmova dahi Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığını tədqiq edərkən heç bir məsələyə biganə yanaşmamış, bütün ədəbi prosesləri izləməyə çalışmışdır. Bu xüsusiyyəti alimin nizamişünaslığa verdiyi bir tövhə adlandırmaq olar.

## Ədəbiyyat siyahısı

1. "Azadəlik carçısı, Teas Press nəşriyyat evi, 2023
2. Azadə Rüstəmova "Seçilmiş əsərləri" 2 cilddə, I cild, Bakı, Elm, 2014
3. Azadə Rüstəmova "Seçilmiş əsərləri" 2 cilddə, II cild, Bakı, Elm, 2014
4. Azərbaycan ədəbiyyat tarixi, 3 cilddə, I cild, Bakı, 1960
5. Ziyəddin Göyüşov "Səadət düşüncəsi", Azərbaycan nəşr. 1983

**Rəyçi: Filologiya elmləri doktoru, dosent Fəridə Əzizova tərəfindən çapa tövsiyyə olunmuşdur.**